

Akif Cabbarlı

# Uzaq əsrlərin dolaylarında

## yaxud tarixi keçmişimizə səmtlənən işıq

**Bu günlərdə hörmətli həmkarım, tanınmış publisist, populyar teleaparıcı və ssenarist, Əməkdar jurnalist Flora xanım Xəlilzadə yenicə çapdan çıxmış ”Hökmdar qadınlar” kitabı ilə onu hər zaman dəyərləndirən əziz və yaxın adamlarını, elə bizim ailəmizi də ürəkdən sevindirdi. Onun şeirlərini, publisistik yazılarını, tariximizin müxtəlif dövrlərindən bəhs edən məqalələrini, dünyanın bir çox ölkəsində rastlaşdığı insanlar və hadisələr barədə yol qeydlərini oxuyan hər kəs bu nəcib və kövrək söz adamının yaradıcılıq axtarışlarından, arzuolunmaz və gözlənilməz dilemma və sürprizlər qarşısında sərgilədiyi cəsarətindən və mübarizliyindən yaxşı xəbərdardır. Elə xarakterində, davranışında və əsərlərində gözə dəyən, ürək açan xüsusiyyət və prinsiplər ”Hökmdar qadınlar” kimi dolğun tarixi araşdırmalar toplusunu araya-ərsəyə gətirməsinə də gen-bol rəvac verib.**

Flora xanım indiyədək ”Analar”, ”Taleyimdən keçən adamlar”, ”Yolum düşə Zəngəzura”, ”Yazdıqlarım”, ”Ruhumun ünvanı Şuşa” kitabları, bir neçə uşaq hekayələri toplusu, xalqımızın, millətimizin taleyinə, bu gününə geniş spektrdə işıq salan bir çox əsərləri ilə oxucuların görüşünə gəlib və sözün əsl mənasında hər kəsi öz baxışları və yaradıcılıq prinsipləri ilə valeh edib. ”Hökmdar qadınlar” da müəllifin keçmişimizə, uzaq əsrlərdən bəri millətimizin, soykökümüzün şərəfini, ləyaqət və namusunu uca tutan, həyatsevərlik və həmişəyaşarlıq simvoluna çevrilməyi bacaran kişi qeyrətli qadınlarımıza sevgi və məhəbbətini sübut edən ədəbi-bədii və tarixi bir avtoqraf mislindədir və tarixi keçmişimizə səmtlənən, əsl vətəndaş yanğısıyla süslənən, odu-alovu ilə uzaq-uzaq əsrlərə işıq saçan yetkin bir əsər kimi dəyərləndirilməlidir. İslam və türk dünyasını, doğma Azərbaycanımızı təmsil edən dünya şöhrətli, isgəndərləri, kirləri qarşılarında diz çökdürən hökmdar qadınlarımız barədə tarixi oçerklər sadəcə o dövrlərin hadisələrinin xronoloji ardıcıllığa söykənən statistik təfsiri deyil, yüksək professionallıqla qələmə alınmış hekayətlər kimi olduqca qiymətlidir və elmi ictimaiyyətimizin, sadə oxucuların, tariximizlə maraqlanan söz-sənət adamlarının hər zaman diqqətini çəkəcək səviyyədədir.

Flora xanım bütün Şərqdə müdrikliyi, iradə və yenilməzliyi ilə tanınan Tomris Anadan, Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəgizin nəvəsi, Məhəmməd Cahan Pəhləvanın övladı, Qızıl Arslanın qızı Cəlaliyyə xanımdan, Misir Sultanı Şəcər Uddurdan, Kutduq dövlətinin hökmdarı Türkan xatundan, Fətəli xanın xanımı Tutu Bikədən, Azərbaycanın görəkəmli şairi, Qarabağ hakimi Mehdiqulu xanın qızı, Şuşada ”Məclisi-üns” ədəbi məclisinin 25 il rəhbəri olmuş Xurşudbanu Natəvandan və digər sultan xanımlardan əsl övlad sevgisiylə söhbət açır, oxucunun uzaq əsrlərə səyahətində yorulmadan onlara yoldaşlıq da edir. Bu hekayətləri oxuyan hər kəsdə qəti bir qənaət formalaşır ki, cəhalətin, geriliyin, fanatizmin tüğyan elədiyi uzaq yüzilliklərdə damarlarında




əsl türk qanı axan analarımız haqqın, ədalətin keşiyində mərdliklə dayanmağı bacarmış, öz ərləri, qardaşları və oğulları ilə nər kimi çiyin-çiyinə vətənin bütövlüyü, dilimizin və dinimizin qorunması, soydaşlarımızın salamatlığı uğrunda çarpışmalarda təkrarsız fədakarlıq göstərmiş, adlarını tarixin yaddaşına pozulmaz naxışlarla yazdıra bilmişlər.

Flora Xəlilzadənin ”Hökmdar qadınlar” kitabına ön söz yazan filologiya üzrə fəlsəfə doktoru, tanınmış yazıçı-publisist, Əməkdar jurnalist Sona xanım Vəliyeva çox haqlı olaraq qeyd edir ki, ”...müdriklik və cəsurluq, eləcə də yüksək idarəçilik keyfiyyətlərinə malik olmaq İlahi tərəfindən insana hədiyyə olunanda onun qadına və ya yalnız kişilərə verilməsi məsələsində ayrıseçkilik qoyulmayıb. Xalqına qəlbən vurğun olmaq və fədakarlıqla, ədalətlə idarəçilik qabiliyyətinə malik olmaq əsas şərtdir”. Sona xanım Vəliyevanın gəldiyi bu qənaət bütün zamanlar üçün xarakterikdir və olduqca qiymətlidir.

”Vektor BEA” tərəfindən nəşr edilən ”Hökmdar qadınlar” araşdırmalar toplusundakı yazılar vaxtilə ”Kaspi” qəzetinin oxucularına da təqdim edilib.

***P.S. Sonda yeni kitabı münasibətilə Flora Xəlilzadəni təbrik edir və ürəyimdən keçən bir arzumu da bildirirəm - tariximizə bu cür yaradıcı məhəbbət sergiləyən müəllifi bu sahənin səriştəli bilicisi və aparıcısı olaraq elmi dərəcə ilə dəyərləndirmək mümkündür, ya yox...***